# Şəhidliyin şahidləri

**Vətəndaşlıq**

Hər qaranlıq gecənin bir işıqlı gündüzü var... Gözəl deyimdir. Ancaq hər gecənin sirr dolu saatları; gündüzlərə qanun yazan - sevinc ilə kədərin, göz yaşı ilə gülüşün məramnaməsini hazırlayan məqamları var. Elə buna görə də həyat sirli, əvvəlcədən oxuna bilinməyən bir kitabdır. O kitab isə bəzən qatı dumanlı, bəzən isə günəş şəfəqlərinin bərq vurduğu bir hava ilə yazılar, həyata doğru istiqamətlər bəzən qara xətlərlə, bəzən qırmızı xətlərlə cızılar. Qara xətt adi yazılan xətt, qırmızı isə fərqlilik göstərən bir rəngdir. Bu fərqlilik 2 rəngin təzadıdır, bu təzadlıq bəzən insan taleyini işıqlandırarkən bu rənglərin məna çalarlığına tam əks bir forma qatır. Qara xəttə adi yazı kimi yazılanlar yaşayanlar, qırmızı xətlə yazılanlar isə müqəddəsliklər uğrunda can qurban edən, şəhadətə qovuşanlardır. Axı qırmızı qan rəngidir... Şəhidlər qanı bahasına zəfər, haqq yazanlardır! Şəhidlər al qırmızı bayrağı özlərinə müqəddəs libas seçənlərdir.

Vətəni vətən edən onun igid övladlarıdır. O övladlar ki, yaşadığı həyatda hər məfhumu öz rəngində, öz donunda görərlər. Torpaq, ana, Vətən onlar üçün hava və su kimi dəyərli! İnsan olan insanlığın mənasını dərk edə gərək. İnsanlığı dərk etmək üçün vicdan və ağılın diktəsi ilə hərəkət etmək lazımdır.

Vətən övladrarı məhz bu yolun yolçularıdır. Sevimli şairimiz Bəxtiyar Vahabzadə yazır ki:

***İstidən, soyuqdan qorxub həsdiyən,***
***İçməyə suyu da ılıq istəyən,***
***Yalana, böhtana qəzəblənməyən,***
***Haqsızlıq önündə susub dinməyən***
***Axı yaşamamış bir insan kimi***
***Dolanmış, sürünmüş öz mədəsiyçün***
***Beləsi vətəndaş ola bilərmi***
***İstili, soyuqlu dünyaya bir gün?..***

Vətən oğul deyərkən qayalarda mamır olub bitər oğullar! O oğullar ki, dünyaya göz açdığı məkanı - torpağını Vətəninin başlanğıcı sanar, ona həyat bəxş edən anası ilə eyni müqəddəsləşdirər. Bax belə övladlar ölümün gözünə dik baxar, ölümsüzləşər. Onlardan kimisi şəhadətə qovuşar, kimisi də onların öcünü alaraq sağlamlığını qurban verərək canlı şəhid kimi qalar.

**Ömru boyu ayna bildim qara torpağı...**

İnsan da özünə aid olmayan mülk və mal üçün qan tökərmi? Allahın ona bəxş etdiklərinə şükranlıq yəqin ki, faşist əqidəlilərə aid deyil; məhz erməni faşizmi və ermənipərəst diktatorizminə.

Hər dəfə iştirakçısı olduğum tədbirlərdə əynində hərbi forması olan və əksər zamanlarda sadə geyimdə, bir çoxlarının isə əlinə əsa və ya müxtəlif bədən üzvlərini itirən gənclərlə rastlaşanda ürəyim döyünür, onlara bir ana baxışı ilə baxıram. Onlarla həm qürur duyur, həm də bu halları ilə - ağrı-acılarına ağrıyır, yanır və düşmənə nifrətim artır. Axı onlar Vətən fədailəridir. Vətən üçün, torpaq üçün can verməyə hazır və ölümün belə vətənə təkrar oğul kimi bağışladığı igtdlərdir. Şəhadət yolunun astanasında olan, şəhidlərin, şəhidliyin canlı şahidləridir. Bax, Rusif də məhz belə bir eloğlumuz, igid övladımızdır. Rusif Mehdixan oğlu İsrəfilov yaxşı bilirdi ki, torpaq parıltısı olmasa da, rəngi qara olsa da bir ayna kimidir. Canlılığın, xüsusilə şüurlu insanın hər üzünü ətrafına göstərər... Rusif gənc olmasına rəğmən həyat anlamını mükəmməl dərk edərək öz yolunun istiqamətini düzgün seçmişdi.

Rusif İsrəfilov 1994-cu il sentyabrın 9-da Soltannuxa kəndində dünyaya göz açmışdır. I Qarabağ müharibəsinin şəhid qəhrəmanı Elsevər Kərimov adına Soltannuxa kənd məktəbində orta təhsilini almışdır.

2012-ci il oktyabrın 20-də həqiqi hərbi xidmətə çağırılmışdır. O, Yardımlı rayonunda Dövlət Sərhəd Xidmətində hərbi xidmətdə ol-



muşdur. 2014-cü ilin aprel ayında hərbi xidmətini başa vuraraq öz kəndinə qayıtmışdır. Həqiqi hərbi xidmətdə olarkən onun nümunəvi xidməti həmişə bəyənilmiş və ona gələcəkdə yaxşı hərbçi ola biləcəyini dəfələrlə demişdilər. Və bu onun qəlbində hərbi sahədə işləmək və Vətəninin xidmətində olmağa həvəs yaratmışdı. Hərbi xidmətdən qayıtdıqdan sonra da bu fikrin istəyi ilə o, 2015-ci ilin iyun ayından hərbi sahədə müddətdən əlavə, hərbçi kimi fəaliyyətə başlamışdır. O, atıcı-pulemyotçu idi. İlk fəaliyyətə Biləcəri Daxili Qoşunlarının “N” saylı hərbi hissəsində başladı. 2016-cı il hadisələri Rusifə də ağır təsir etmiş, düşmənə nifrətilə bərabər öz işinə məsuliyyəti də artırmışdı. Təlimlərdə həmişə öz bacarığı ilə fərqlənən Rusif əsl hərbçi kimi yetişmək və bu sahənin sirlərini mükəmməl öyrənməyə çalışırdı. Torpaqlarımızın 30 ilə yaxın düşmən tapdağında, insanların məcburi köçkün, qaçqın halında yaşaması, çoxlu sayda şəhid verməmizə rəğmən ölkəmizin məğlub adı kimi bir “yamaq” ad qazanması xalqın övladı kimi onu çox təəssüfləndirirdi. O hər zaman torpaqlarımızı döyüşərək qaytarmağa hazır idi. Məlum 2020-ci ilin iyul hadisələri və eloğlusu Polad Həşimov kimi bir qəhrəmanın xaincəsinə ölümü hamı kimi ona da pis təsir etmişdi. Polad Həşimovun xaincəsinə öldürülməsi Vətən Müharibəsinin başlanmasına təkan verdi. Əli silah tutan, qorxmaz gənclər Poladın ölümünü qəbul edə bilmir, qisas almaq üçün könüllü kimi yenidən orduya yazılırdı. Ölkəmizin Ali Baş Komandanı, Prezidentimiz İlham Əliyevin 27 sentyabrda verdiyi sərəncama əsasən Vətən Müharibəsi - Qisas müharibəsi başlandı. Ordu və xalqın yekdil fikri ilə başlanan Qisas müharibəsi xalqın igid oğullarını bir araya gətirdi və Dəmir yumruqda birləşdirdi.

Məhz o Dəmir yumruğu erməni faşizminə “endirənlərdən” biri idi Rusif. Dəmir yumruq yalnız erməni faşizminə deyil, həmçinin ermənipərəst dövlətlərin “vur, dağıt, öldür” ideologiyasına, ideyasına endirilən polad yumruq idi!..

Rusiflə söhbət zamanı öyrəndik ki, o döyüşçü dostları ilə sentyabrın 27-dən 10-13 gün sonra əvvəlcə Bərdə rayonuna gələrək 10 gün Bərdə və Ağcabədi postlarında polis işçiləri ilə birgə xidmətdə oldu. Oktyabrın 11-də Füzuli rayonu istiqamətindəki döyüşlərə qatıldı.

Müharibə, nifrət hissi bəzən insanlarda mübarizliyi, qüvvəti artırır, qorxmazlıq, ölümsüzlük onların qəlbinə hakim olur. Axı müharibədə düşmənə aman vermək təkrar ölüm qazanmaq deməkdir. Məhz buna görə də müharibə qaydalarına uyğun olaraq hərəkət etməli,-silahını sənə çevirənləri hərəkətlərinə layiq cəzalandırmalısan! Rusiflə döyüş anları haqda söhbət zamanı onların erməni postlarında, döyüşlərdə etdikləri hərəkətləri və döyüşləri məhz Azərbaycan əsgərinin adına layiq bir qəhrəmanlıq kimi qiymətləndirmək olar. Rusif deyir ki, Elvin Abdurahmanovun ölümü, eləcə də, ətrafında şəhid olan silahdaşlarımızın qisas hissini, yaralanan oğulların yenidən döyüşlərə qatılması məndə xalqıma, ölkəmə məhəbbət və düşmənə nifrəti artırırdı. Horadiz istiqamətinə, Şuşa istiqamətinə yol açarkən qarşılaşdıqları hadisələr, Şuşaya gedərkən döyüşlər və tanımadıqları ərazidə gecənin qaranlığında yol almaları, Tuğ meşəsindəki yanğın... Çox hadisələr indi xatirələrə dönmüş olsa da, əsgərlərimizin döyüş və qəhrəmanlıq salnamələri idi. Daşaltı istiqamətində gedən döyüşlər onun yaddaşına iz salan qəhrəmanlıq səhifəsi idi. Və o, bu səhifənin adminlərindən biri idi...

**Həyata dönüş...**

Atası Mehdixan İsrəfilov və anası Zöhrə xanım, yoldaşı Fidan xanım yəqin ki, müharibə başlayan andan şirin yuxunun nə demək olduğunu bilmirdilər. Xüsusilə noyabr ayı hər an səksəkə içində idilər. Bəlkə də Rusifin yaralanmasını belə yuxularında görmüşdülər.

Noyabrın 5-də yaralanan Rusif ailəsinə bu haqda məlumat verməmişdi. Noyabrın 9-də ailəsi onun yaralandığından xəbərdar oldu. Rusif ölümdən döndü... Yaralandığı an əzizlərinin, xüsusilə 3 körpənin - qardaşı övladları Yağmur və Tuncayın “əmi!”, oğlu Olcayın “ata!” səsini eşitdi, ana laylası, bəlkə də boynu bükük dayanmış ömür-gün yoldaşının məyus baxışları, ata və qardaş qəddinin əyilməsi onu yenidən həyata döndərdi, ruhu candan ayrılmadı...

Cəmi iki il idi ki, ailə qurmuşdu 2018-ci ildə. Körpə Olcayın qayğısız baxışları daim göz önündə idi... Bəlkə də bu “ölümü” ovsunlamışdı...

Yaralanandan sonra əvvəlcə Füzulidə, sonra isə Ağcabədi mərkəzi xəstəxanasında müalicə götürdü. Sonra isə Respublika Travmatologiya İnstitutu, Daxili İşlər Nazirliyi 1 saylı poliklinikası, daxili qoşunlar hospitalında müalicə almışdır.

O, Zəfər xəbərini xəstəxanada eşitdi. Bu onun həyatında eşitdiyi ən müqəddəs və gözəl xəbər idi...

Rusif 2021-ci ilin avqust ayında ehtiyata buraxılmışdır.

**Təltif... göz önündə**

Hər bir əsgər döyüşə atılarkən qazanacağı ad və təltifi düşünmür. Onun bir məqsədi olur: döyüşlərdən qalib kimi qayıtmaq. Döyüşçüyə adı, təltifi rəhbərliyin təqdimatı ilə dövlət, komandanlıq təyin edir. Ən böyük ad döyüşçü üçün “Şəhid” adıdır. Ən ali ad insanlığın zirvəsi! Qazilərin də ən ali təltifi onların itirdiyi sağlamlığın nişanələridir, qəhrəmanlıq vəsiqəsidir. Əllərindəki əl ağacları, əlillik nişanələri... Həkimlərin yazdığı iynə-dərman müalicəsi, psixoloq qəbulları onların qəhrəmanlıq dolu döyüş həyatını əks etdirmirmi?!.

Bəli, etdirir. Dövlətimiz tərəfindən isə tarixi sənədlərlə qəhrəmanlıqlar təsdiq olunur. Rusif “Füzulinin azad olunması”, “Vətən müharibəsi iştirakçısı”, “Xidmətdə fərqlənməyə görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Ən böyük təltifi isə... Müharibədə müharibə vəziyyətinin, döyüşçü şücaətinin Allah tərəfindən verilən qiymətidir: Ya şəhid ol, ya qazi! Qazi adı isə Allahın ona bəxş etdiyi həyatdır!

Sağlam yaşlanasan, əmin-amanlıq şəraitində! Sənə çəliksiz ömür, şəhidlərin canlı şahidi kimi möhkəm və sağlam yaddaş arzulayıram!

**QAZİLƏRDİR CANLI ŞƏHİD İMZALI...**

***Məğrurluqdur kişilərin timsalı,***
***Vüqar,qürur,əyilməzlik misalı,***
***Şimşəklərdən od oğlu od doğulmuş,***
***Vətən,qeyrət simvollu bir oğulmuş,***
***Vicdan ilə əqidənin əzəli,***
***Hər" qaranlıq düyünləri" çözəli,***
***İnsanlıqda igid adı özəli!***

***Ata- ana öyüdünü alanı,***
***Ailəsinin isti ocaq quranı,***
***Dövlətinin tam ayaqda duranı,***
***Döyüşərək qürur,zəfər çalanı,***
***Canı ilə əvəz edər qalanı,***
***Əqidəsi sıldırımlı sal qaya,***
***Kişiliyi tanıdıbdır dünyaya!..***

***Döyüşlərdə bu ad ilə döyüşən,***
***İgidlikdə Boz qurd ilə öyüşən,***
***Sevincini zəfərlərlə bölüşən,***
***Şəhidinin öcün alan bir ərdir,***
***Əqidəsi ölümsüzlük,hünərdir!***
***Saqlamlığın qurban edən kişilər,***
***Qazi adlı öndə gedən kişilər!***

***Əlil adı,şikəst adı qazanar,***
***Döyüş anın...ölümləri hey anar...***
***Qisas hissi beyinlərdə dolanar,***
***Psixoloji travmayla oyanar,***
***Qan qoxusu,canda qəlpə...o,yanar...***
***İynə,dərman onun yaşam ortağı,***
***Yaddaş torpaq,əldə Vətən bayrağı!***

***Kişi kimi ömür sürər insanlar,***
***Kişiliklə insanlıqda tanınar!***
***Döyüşçülər,qazilərdir dayağı,***
***Bu Vətənin qoruyucu bayrağı,***
***Bayraq oğul,bayraq Vətən timsalı,***
***Qazilərdir qəhrəmanlıq misalı,***
***Qazilərdir canlı Şəhid imzalı!!!***

**Bibixanım İSAYEVA.**

# Laçın - Xankəndi yolundakı ekoaksiya davam edir

Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası yetmiş üç gündür davam edir.

“Report”un hazırda ərazidə olan əməkdaşı xəbər verir ki, havanın küləkli, soyuq və şaxtalı olmasına baxmayaraq, aksiya iştirakçıları ötən gecə boyu da yüksək fəallıq nümayiş etdiriblər.

Təhlükəsizlik qaydalarına yüksək səviyyədə əməl olunan toplanış yerində gecə boyu da heç bir insident baş verməyib.

Həmişə olduğu kimi, etirazçılar bu səhəri də Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açıblar.

Onlar etirazlarını yüksək əhvali-ruhiyyə ilə davam etdirirlər.

Eyni zamanda ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər.

Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır.

Etirazçılar aksiyanın keçirildiyi ilk gündən etibarən dünya ictimaiyyətini ekologiyanı qorumağa çağırırlar.

Belə ki, ekofəallar və gənc könüllülər “Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, “Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, “Ekoloji cinayətə son!”, “Stop ekoterror!”, “Bereqite prirodu!”, “Gkoüidu net! Monitorinqu da!” şüarlarını səsləndirirlər.

Qeyd edək ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlara bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

Dekabrın 16-da Rusiya sülhməramlılarının qərargahında növbəti görüş keçirilib. Ancaq monitorinq qrupunun yataqlara yerində baxış keçirməsinə növbəti dəfə lazımi şərait yaradılmayıb və qarşıya qoyulan vəzifələrin icrasına nail olunmayıb.

2022-ci il dekabrın 12-dən etibarən isə etiraz aksiyası başlayıb.

**“Qəbələ”**